**UOT 1(091)** **(səh. 12-17)**

# ÖMƏR FAİQ NEMANZADƏNİN İCTİMAİ-SİYASİ FƏALİYYƏTİ

**Eynulla Mədətli**
Tarix elmləri doktoru
emadatli@gmail.com

**Xülasə.** Ömər Faiq Nemanzadə XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın milli-demokratik düşüncəli görkəmli maarifçilərindən və ictimai-siyasi xadimlərindən olmuşdu. Uzun müddət Azərbaycanda müəllimlik etmiş, 1903-cü ildən etibarən Tiflisdə publisistik fəaliyyətlə məşğul olmuşdur. Ö.Faiq 1906- cı ildə yaxın məsləkdaşı Cəlil Məmmədquluzadə ilə birlikdə "Molla Nəsrəddin"jurnalının təsis edilib nəşr edilməsində əhəmiyyətli rol oynamışdı.

# SOCİO-POLİTİCAL ACTİVİTY OF OMAR FAİG NEMANZADEH

**Eynulla Madatli**
Doctor of historical sciences
emadatli@gmail.com

**Abstract.** Omar Faig Nemanzadeh was one of the outstanding educators and social and political figures of Azerbaijan with national-democratic thinking at the end of the 19th century and the beginning of the 20th century. He was a teacher in Azerbaijan for a long time, and since 1903 he has been engaged in journalistic activity in Tiflis (Tbilisi). In 1906, Omar Faig played an important role in founding and publishing "Molla Nasreddin" magazine together with his close colleague Jalil Mammad¬guluzade.

Omar Faig closely followed the revolutionary changes in the Caucasus in 1918-1920 and attached great importance to national statehood. He considered the Azerbaijan Democratic Republic to be a great achievement of Turkish national thought , sharply criticized those who tried to destroy it from inside, and insisted on protecting the Republic. On October 30, 1918, he became the head of the local government in Ahiska after the Ottoman state withdrew its troops from the Caucasus territories according to the Mudros Treaty. He also held a responsible position in Soviet Georgia for some time, but returned to Azerbaijan in 1923 and worked in the Education Commissariat. On July 16, 1937, he was arrested on a visit to his native Ahiska, and was shot by repressive regime.

# ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ДЕЯТЕЛЬНОСТЬ ОМАРА ФАИГА НЕМАНЗАДЕ

**Ейнулла Мадатли**
доктор исторических наук
emadatli@gmail.com

**Аннотация.** Омар Фаиг Неманзаде был одним из выдающихся просветителей и общественно-политических деятелей Азербайджана с национально-демократическим мышлением конца 19-го и начала 20-го века. Он долгое время был учителем в Азербайджане, а с 1903 года занимался журналистской деятельностью в Тбилиси. В 1906 году О. Фаиг

сыграл вместе со своим близким соратником Джалилом Мамедгулузаде важную роль в создании и издании журнала «Молла Насреддин».
О. Фаиг внимательно следил за революционными преобразованиями на Кавказе в 1918-1920 гг. и придавал большое значение национальной государственности. Он считал Азербайджанскую Демократическую Республику великим достижением национальной тюркской мысли и резко критиковал тех, кто пытался разрушить ее изнутри, и настаивал на защите Республики. 30 октября 1918 года О.Фаиг стал главой местного правительства в Ахыске после того, как Османское государство вывело свои войска с кавказских территорий в соответствии с Мудросским договором. Затем некоторое время он также занимал ответственную должность в Советской Грузии, но вернулся в Азербайджан в 1923 году и работал в Наркомате просвещения. В 16 июля 1937 года он был арестован во время посещения родной Ахыски и вскоре был расстрелян репрессивным режимом.

## Giriş

Ömər Faiq Nemanzadə XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın milli-demokratik düşüncəli görkəmli maarifçilərindən və ictimai-siyasi xadimlərindən idi. Qida mənbəyini Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə, Cəmaləddin Əfqani kimi mütəfəkkirlərimizin ideyalarından və əməli fəaliyyətlərindən götürən yeni nəsil ziyalılarımız sırasında Ömər Faiqin adı Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, İsmayıl bəy Qaspıralı, Yusuf Akçuralı, Məhəmməd Əmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Məhəmməd ağa Şaxtaxtılı, Üzeyir bəy Hacıbəyli, Ceyhun bəy Hacıbəyli, Eynəli bəy Sultanov və digər görkəmli şəxsiyyətlərlə yanaşı çəkilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Ömər Faiq Nemanzadənin anadan olmasının 150 illiyinin qeyd edilməsi haqqında" 3 oktyabr 2022-ci il tarixli sərəncamı bu mübariz ziyalı, yazıçı-publisist, naşir və ictimai-siyasi xadimimizin zəngin irsinə bir daha nəzər salmağa, onun günümüzlə səsləşən vətənpərvər ruhlu məqalələrini, kəsərli siyasi çıxışlarını yenidən gözdən keçirməyə səsləyir. Sərəncamda qeyd olunur: "Ümumxalq əhəmiyyəti daşıyan bütün taleyüklü məsələlərin zamanın qabaqcıl ideyaları fonunda daim azərbaycançılıq məfkurəsi cəbhəsindən işıqlandırılması Ömər Faiq Nemanzadənin milli ideyalarla zəngin və dərin siyasi-ictimai məzmuna malik publisistik irsinin başlıca leytmotivini təşkil etmişdir"*(1).*

Bütün varlığı ilə Azərbaycana bağlı olan Ö. Faiq etnik mənsubiyyətinə görə Ahıska türkü idi.1872-ci ildə, indiki Gürcüstanın Ahiska qəzasının Azqur kəndində anadan olmuşdu. Dindar anasının təkidi ilə bir müddət molla məktəbində dərs alan Ömər atasının dəstəyi ilə rus dilli hökumət məktəbinə daxil olmuş, bir müddətdən sonra yenə anasının təkidi ilə İstanbulda dayısının dərs dediyi Başqursunlu mədrəsəsində oxumuş, bir qədər sonra təhsilini dövlətin kimsəsiz uşaqlar üçün açdığı, dini dərslərlə yanaşı, dünyəvi fənnlərin də tədris olunduğu Dar-üş-şəfəq məktəbində davam etdirmişdi. Səkkizinci sinifdə oxuyarkən "məktəb üsyanı"nda yaxından iştirakına, yəni bir neçə tələbə yoldaşı ilə gizli məktəb qəzeti çıxardıb müdiriyyəti və dərs proqramlarını tənqid etdiyinə görə 30 "zopa" ilə cəzalandırılmış və qısa müddət həbsə salınmışdı *(2, s.8).*

Ö.Faiqin 1891-ci ildə həmin məktəbdən məzun olandan sonra Qalata poçtxanasında bir müddət işləməsi onun dünyagörüşünü daha da genişləndirmişdi. Poçtxanada mütərəqqi türk və Avropa ictimai-siyasi fikrinin yer aldığı qəzet və jurnallarla tanışlıq onda inqilabi ruh yaradır və bu sahədə fəaliyyət göstərməyə çəkirdi. Onda yəqinlik hasil olmuşdu ki, millətin tərəqqisi və dünyanın qabaqcıl millətlərinin cərgəsinə qoşulması yolu maarifçilikdən keçir. Ona görə də, Ö.Faiq müəllimlik sənətinə xüsusi önəm verirdi. 1894-cü ildə Şəkidə müəllim işlədiyi zaman o, eyni zamanda, geniş əhatəli maarifçilik işi aparırdı. Müəllimlərin gücü ilə hazırladığı teatr tamaşalarında öz maarifçi-demokrat görüşlərini yayırdı.

1903-cü ildən etibarən Tiflisdə çalışan Ö.Faiq dövrün mətbu orqanlarında artıq inqilabi-demokratik ruhlu yazıları ilə diqqəti cəlb edirdi. O, yalnız Rusiyada deyil, eyni zamanda Qacarlar İranında və Osmanlı Türkiyəsində baş verən inqilabi prosesləri də yaxından izləyirdi. O, borc eləyib satın aldığı "Qeyrət" mətbəəsində çap etdirdiyi məqalə və çağırışları, xüsusən də siyasi intibahnamələri ilə regionda və dünyada baş verən inqilabi-demokratik proseslərə münasibət bildirirdi. Onun məqalələrində insan haqqları, hüquq və azadlıqları məsələləri şərh olunur, bu sahədə dövrün çağırışlarına uyğun fikirlər yer alırdı. Xalqımızın milli şüurunun formalaşmasında və ictimai düşüncəsinin inkişafında Ö.Faiq öz əməli fəaliyyəti ilə əhəmiyyətli rol oynamışdır. Onun bu istiqamətdə fəaliyyəti çoxşaxəli idi. Yüksək natiqlik məharəti ilə çıxışlar edirdi, dövrün çağrışlarına və gələcəyə hədəflənən mövzularda həm “Qeyrət” mətbəəsinin nəşrlərində, həm "Şərqi-Rus"qəzetində, həm də digər mətbu orqanlarda mütəmadi publisistik yazılar yazıb dərc etdirirdi.

Azərbaycanın tanınmış filoloqları Ş.Qurbanov, Ə. Mirəhmədov Ö. Faiqin bu sahədəki fəaliyyətlərinə yüksək qiymət vermişlər. Sosial-demokratlarla məslək və əməl yaxınlığı onu bir inqilabçı kimi yetişdirirdi və 1905-ci ilin oktyabrında Tiflisdə inqilabçı dəstələrə qoşularaq fəhlələr arasında geniş iş aparırdı. Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım sonralar qələmə aldığı xatirələrində Mirzə Cəlil və Ömər Faiqin o zamankı Tiflisdə baş verən ictimai-siyasi hərəkatlara biganə qalmadıqlarını, “izdihamın arasında” getdiklərini vurğulayırdı*(3, s.248).*

Ö.Faiq 1906- cı ildə yaxın məsləkdaşı Cəlil Məmmədquluzadə ilə birlikdə "Molla Nəsrəddin" jurnalının təsis edilib nəşrə başlamasında xüsusi rol oynamışdı. O, Cəlil Məmmədquluzadə ilə bərabər jurnalın ilk sayının hazırlanmasında səylə çalışmış, “Bilməli xəbərlər”, “Atalar sözləri” bölümlərindəki materialları isə şəxsən özü hazırlamışdı *(4, s. 70-71).*

Ö.Faiq həm bir əməkdaş kimi sahibi olduğu “Qeyrət” mətbəəsi vasitəsilə, həm daim göstərdiyi maddi-mənəvi dəstəklə, həm də öz publisistik fəaliyyəti ilə “Molla Nəsrəddin” jurnalının işıq üzü görməsində böyük zəhmət çəkmişdi. Cəlil Məmmədquluzadə Ö.Faiqin “Molla Nəsrəddin” jurnalını “bina etməkdə” ona göstərdiyi yardımı yüksək qiymətləndirirdi *(5, s. 145).*

Cəlil Məmmədquluzadənin Ömər Faiqə xüsusi ehtiramı var idi və “Molla Nəsrəddin” jurnalını onlar birgə yaratmışdılar. Ö.Faiq “Molla Nəsrəddin” jurnalı ilə yaxından əməkdaşlıq etdiyi altı il ərzində jurnalda otuzdan artıq felyeton və məqalə dərc etdirmişdi. O, əsrin əvvəllərində qadın azadlığı məsələlərinə dair kəskin məqalələri ilə seçilirdi, müasir dünyanın önəm verdiyi elmlərə yiyələnməyin zəruriliyini vurğulayır, maarifçi çıxışları və müraciətləri ilə, geniş dünyagörüşü, cəsarətli və ardıcıl mövqeyi ilə əksər mollanəsrəddinçilərdən irəlidə gedirdi *(3, s.266).*

Qeyd edilməlidir ki, Ö.Faiq bir sıra müasirləri və məsləkdaşları kimi yalnız məqalələr yazmaq, mətbu orqanlarda dərc olunmaqla kifayətlənməmiş, bunlarla yanaşı, geniş əhatəli ictimai-siyasi fəaliyyətlə məşğul olmuşdur. O, Rusiya hökumətinin türk-müsəlman əhalisinə münasibətdə xeyirxah mövqe tutmadığını, onların inkişaf və tərəqqisi üçün heç bir imkan və şərait yaratmadığını vurğulayaraq yazırdı: "Qafqazda bizlərdən əlli, altmış kərrə az olan qonşularımız, yəni ermənilər müsəlman və türk olmadıqlarından, hökumətin dəstəyi və yardımı ilə rusların xristian "din - məzhəb qardaşları" kimi irəli getmişlər *(6, s. 67)*

Ö.Faiq ardıcıl və məqsədyönlü şəkildə ana dili məsələsini gündəmə gətirir, hər bir fürsətdə bu mövzunu qabardaraq milli məsələnin vacib tərkib hissəsi kimi şərh və təbliğ edirdi. O, vurğulayırdı ki, bir millətin yaşaması dili ilədir. Dil yoxluğu millət yoxluğudur. Mən inanmam ki, dilini sevməyən millətini sevsin, çünki dil millətin tək nisanıdır... milli dildə danışmaq istəməyənin millətpərəstlikdən dəm vurması yalançılığın təzə modasından özgə bir şey ola bilməz. O, “Dilimiz və imlamız” məqaləsində yazırdı: “Hər millətin ədəbiyyata malik dili o millətin ruhu, nisaneyi mövcudatıdır. Ondan məhrum olduğu gün mərhum olmuş, ondan uzaqlaşdığı gün qəbrinə yaxlaşmış deməkdir. Tarix bizə göstərir ki, bir millətin cahangirliyi, hökuməti, hətta yeri-yurdu da əlindən alınsın, madam ki, milli ədəbiyyatı var, o millət məhv edilməz. Dili kəsilməyən millətin vücudu kəsilməz, ədəbiyyatı yaşayan millət heç vaxt ölməz” *(6, s.247).*

Ö. Faiq “Nə üçün müəllimlərimiz Bakıya qaçır” məqaləsində (1906, “İrşad” qəzeti) hansı ölkədə olmasından asılı olmayaraq təhsil almağın əhəmiyyətini vurğulayırdı. O, təhsilə çox az diqqət ayrıldığını Şamaxıda, Şəkidə, Gəncədə, İrəvanda, Şuşada, Naxçıvanda, hətta Tiflisdə müəllimlərin ehtiyac içində yaşadıqlarını məqalə və çıxışlarında ictimailəşdirirdi. O, bütün pedoqoji fəaliyyətində tələbələrin daha yaxşı, dərin, əhatəli biliklər almasına çalışırdı.

Ö.Faiq Azərbaycanın tarixinə, dilinə, mədəniyyətinə, təhsilinə ürəkdən bağlı olan böyük maarifçi kimi nüfuz qazanmışdı. O, bütün yaradıcılığı ilə Azərbaycan xalqının maariflənməsinə və qanuni-təbii haqlarına sahib olmasına çalışırdı. Bu işə öz içərimizdən mane olanlara qarşı kəskin mövqe ortaya qoyaraq onları ifşa edirdi. Xalq yazıçısı Anar Ö.Faiqin bu sahədəki cəsarətli çıxışlarını xüsusilə təqdir etmiş, onun mübariz mövqeyinin mətbuatımızın inkişafına təkan verdiyini qeyd etmişdir (7, s. 706). “Molla Nəsrəddin” jurnalı qısa müddətə bağlatdırılanda Ö.Faiq yazmışdı: “Mən başa düşdüm ki, millətin kədəri və bədbəxtliyinə etinasız olan yalançı millətçilər öz saxta xəbərçilikləri ilə hökumətə xidmət edirlər. Anladım ki, təfəkkür ağacımızı içəridən gəmirənlər bizim öz qurdlarımızdır.Anladım ki, bizim millətin hüquqlarını tapdalayanlar,onun ürəyini yaralayanlar sapı bizdən olan baltalardır *(6,s.36-37).*

Ö.Faiq yazırdı ki, Türklər islam qeyrətini o qədər çəkmişlər ki, artıq bu qeyrətlə öz varlığını və adını da itirmişlər. O yazırdı: “Hə, ey Türk! İstər darıx, istər karıx, yaxandan əl çəkən deyiləm...Niyə sənə “Kimsən?” dedikləri vaxt həqiqi cavabında aciz qalırsan? Niyə sadəcə deyə bilmirsən ki, mən Türkəm? Niyə deyə bilmirsən ki, şiəlikdən, sünnilikdən, babilikdən əvvəl sən türk idin. İndi də türksən və bundan sonra Türk qalacaqsan”*(6, s 238).* Onun “Nə üçün haqqımızı istəmirik?”, “Millətpərəstlik zamanıdır”, “Mən kiməm?”, “Dərdimiz və dərmanımız” və bu kimi digər məqalələrində həm milli kimlik məsələsi, həm də milli haqqlar tələbi kəskin şəkildə qoyulurdu. Dərdi açıqca söyləyən Ö.Faiq dərmanını da aydın şəkildə göstərirdi. Türk xalqını keçmişinin təcrübələrindən ibrət alıb nəticə çıxarmağa çağırır, onu oyanışa, mübarizəyə, inkişaf və tərəqqiyə, milli birliyə səsləyirdi.

Ö.Faiqin İslam dininə münasibəti də xarakterik idi və özünəməxsus çalarlara malik idi. O, məqalə və çıxışlarında dinə qarşı mübarizə etməyi deyil, onu daha dərindən öyrənməyi, beləliklə də xurafatdan və ifrat təriqətçilikdən uzaq durmağı təlqin edirdi. Eyni zamanda, İslamda islahatlar aparılmasını, dinin saflaşdırılmasını zamanın tələbi hesab edir, ona elmi yanaşma sərgiləməyə üstünlük verirdi. O, “Əhməd bəy Ağayev” məqaləsində oxuculara tövsiyyə edirdi ki, İslam dininin əsl mahiyyətini anlamaq üçün ruhanilərin deyil, Əhməd bəy kimi elm adamlarının əsərlərini oxumaq lazımdır *(6, , s.37)*

Ö.Faiq keçmiş zamanlara aid yüksək islam mədəniyyəti ilə öyünməməyi tövsiyə edirdi. Deyirdi ki, biz Avropanı yamsılamaq deyil, onun elmini və əməlini öyrənməliyik. Milləti oyanışa səsləyəyək yazırdı: İlahi, bizim millətin mərifət baharı nə vaxt gələcək? Elm çiçəklərimiz nə zaman açılacaq? Həmişə belə gözübağlı, dili lalmı qalacağız?...Cəhalət ilə puç olub gedən, mərifət ilə səlamətə çıxan millətlərdən ibrət alalım *(6, s.25, 234).*

1912-cu ildə “Molla Nəsrəddin”dən ayrılan Ö.Faiq daha çox Əhməd Ağaoğlu və Əli bəy Hüseynzadənin məslək yoluna üstünlük verirdi. “Millətpərəstlik zamanıdır” məqaləsində o, artıq islamçıdan daha çox, bir türkçü kimi çıxış edirdi. “Mən kiməm?” məqaləsində yazır: “Mən iddia etmək deyil, uca səslə bağırıram ki, biz özümüzü tanımırıq, biz öz millətimizin boş adını belə bilməyiriz *(6, s.234).* Tanınmış tədqiqatçı Faiq Ələkbərlinin fikrincə Ö.Faiq ilk dövrlərdə ümumtürk birliyi tərəfdarı olmuş, zamanla milli–məhəlli türkçülüyün daha gerçəkçi olması qənaətinə gəlmişdir. Deməli, əvvəllər ümidini daha çox islamiyyətin yeniləşməsində, ruhani idarələrinin təkmilləşməsində görən Nemanzadə bunun mümkünsüzlüyünü dərk etdikdən sonra milli oyanış, milli birlik məsələsinə önəm vermiş, milli təşkilatların yaranmasını vacib hesab etmişdir (8, s. 766).

Ö.Faiq 1917-1918-ci illərdə ciddi təqiblərə məruz qalmış, bir neçə dəfə həbs edilmişdi. Bu Gürcüstan hökumətinin anti-türk siyasətinə onun kəskin etiraz etməsi və bu xüsusda tənqidi yazıları

və çıxışları ilə əlaqədar idi. Tiflisdə Metex qalasına salınanda onunla görüşə gələn Əhməd Cavad yazmışdı ki, Ömər Faiq təkcə Ahıskanın deyil, bütün millətin xadimidir. Həbsdən sonra 1919-cu ildə Bakıya gələn Ö. Faiq bir müddət Bakı şəhər polis idarəsində işləmiş, 1920-ci ilin axırlarında az müddətdə Gəncə Kənd Təsərrüfatı texnikumunun direktoru olmuş, sonra yenidən Gürcüstana dönmüşdü.

Ö.Faiq 1918-1920-ci illərdə Qafqazda gedən inqilabi dəyişiklikləri yaxından izləyir, milli dövlətçiliyə böyük önəm verirdi. Azərbaycan Xalq Cümhuriyyətini milli düşüncənin, türklüyün böyük nailiyyəti hesab edir, onu içəridən dağıtmağa cəhd edənləri kəskin tənqid edirdi, təkidlə Cümhuriyyəti qorumağa çağırırdı. O, ölkədə daxili ziddiyyətləri və çəkişmələri, xırda şəxsi mənfəətləri bir tərəfə qoyub milli hökuməti dəstəkləməyə çağırırdı. Yazırdı ki, "hər kəsin mübtəla olduğu bu dərd cavan hökuməti incidiyor, sarsıdıyor. Xaricə qarşı daxili qüvvətimizi zəiflədiyor, yeni qurulan hökumət maşinasını pozuyor, həm də fəna halda pozuyor"*(6, s.769).*

Qeyd etmək lazımdır ki, 1829-cu ildə Rus-Türk müharibəsindən sonra Ədirnə müqaviləsinə görə qədim türk yurdu olan Ahıska və Axalkələk Rusiyanın işğalında qalmışdı və bu vəziyyət Birinci Dünya Müharibəsinin sonlarına yaxın belə də davam edirdi. Lakin Osmanlı dövlətinin Şərq cəbhəsinin orduları bu bölgələri azad edib Batum şəhərində Türk bayrağını qaldırmış və o zaman azərbaycanlıların, ermənilərin və gürcülərin təmsil olunduğu və Osmanlı dövləti ilə müharibə içində olan Zaqafqaziya hökumətindən həmin bölgələrin Türkiyəyə qaytarılmasını rəsmən tələb etmişdi. 1918-ci il mayın 10-da Batumda başlanan xeyli müzakirələrdən sonra gürcü heyəti bu tələblə razılaşmalı olmuşdu. Lakin, bu məsələ sonadək həllini tapmadı, çünki mayın 26-da gürcülər, sonrakı günlərdə isə azərbaycanlılar və ermənilər öz müstəqil dövlətlərinin qurulduğunu bəyan etdilər, həmin sənədləri təsdiq etməli olan Zaqafqaziya Seymi də fəaliyyətini itirmiş oldu. Belə vəziyyət yarandıqda Osmanlı dövləti iyunun 4-də Azərbaycan Cümhuriyyəti ilə Dostluq, Ermənistan və Gürcüstan cümhuriyyətləri ilə Sülh və dostluq müqaviləsi imzaladı. Gürcüstanla imzalanan müqaviləyə görə yuxarıda adı çəkilən bölgələrin Osmanlı dövlətinə qaytarılması tələbi qəbul edildi. Lakin, Birinci Dünya Müharibəsində Almaniyanın məğlubiyyəti onun müttəfiqi kimi, Türkiyəni də ağır şərtlər altına saldı. 1918-ci il 30 oktyabr Mudros müqaviləsinə görə Osmanlı dövlətinin Qafqaz ərazilərindən öz qoşunlarını çıxarması ilə həmin bölgələr Gürcüstanın tərkibində qalmalı oldu. Bölgənin türk-müsəlman xalqına aşkar təhlükə yarandığı belə şəraitdə Ahıskada da Naxçıvanda, Qarsda olduğu kimi bölgə əhalisini qorumaq üçün məhəlli hökumət təşkil edildi və Ö. Faiq bu hökumətin rəisi oldu. Sonra bu hökumət Cənub Qərbi Qafqaz Hökumətinin tərkibinə qatıldı və bu vəziyyət 1919-cu ilin aprel ayınadək, ingilislərin bu hökuməti ləğv edib rəhbərlərini Maltaya sürgün etməsinədək davam etdi.

Ö.Faiq formal olaraq Gürcüstan vətəndaşı idi və Gürcüstanın sovetləşməsi zamanı baş verən proseslərə o da cəlb edilmiş, sovetləşmə ilə əlaqədar Gürcüstan İnqilab Komitəsinin Müraciətində tanınmış gürcü bolşeviklərinin imzası ilə yanaşı, onun da imzası var idi. 1921-1922-ci illərdə Gürcüstan İnqilab Komitəsinin üzvü kimi sədr Filipp Maxaradzeyə məktubla müraciət edib Gürcüstanda yaşayan 300 min nəfər müsəlman əhalisinə müstəqil idarəçilik verilməsini təklif etsə də, buna əməl olunmadı. Halbuki, Acarıstan, Abxaziya, Osetiyaya bu hüquqlar verildi. Onun "Müsəlmanların işi üzrə komissarlıq" yaratmaq təklifi də qəbul olunmadı. Onun 11 iyun 1921-ci ildə Gürcüstan SSR Xalq Komissarları Sovetinin sədri Filipp Maxaradzeyə yazdığı məktubda müsəlmanların (azərbaycanlıların) yerli idarəçilikdə təmsil olunmasının zəruriliyi vurğulanırdı, eləcə də, Uyezd İnqilab Komitəsində müsəlmanların 2-3 nümayəndə ilə təmsil olunmalarının vacibliyi vurğulanırdı *(7, s.709).*

Gürcüstanda təşəbbüs və cəhdlərinin nəticə vermədiyini görən Ö.Faiq 1923-cü ildə yenidən Azərbaycana qayıtmış, Maarif Komissarlığında işləmişdi. 1927-ci ildə təqaüdə çıxmış, eyni zamanda təhsil sahəsində fəaliyyət göstərməkdə davam etmişdi. Lakin totalitar kommunist rejiminin repressiya maşını minlərlə həmkarı və həmfikri kimi onun həyatına da son qoymuşdur. O, 1937-ci ildə

iyulun 16-da doğma yurdunda - Ahıskada səfərdə olarkən rayon prokuroru olan erməni Odabaşyanın qərarı ilə həbs olunmuş, 3 ay sonra güllələnmişdi.

Qeyd etmək lazımdır ki, Ö. Faiqin ədəbi-publisistik fəaliyyəti, ictimai-siyasi görüşləri barəsində bir sıra məqalələr, tədqiqat əsərləri, dissertasiya və kitablar yazılsa da, onun zəngin irsi, xüsusilə də müxtəlif nəşriyyələrdə dərc olunan məqalələrinin hamısı toplanıb nəşr edilməmişdir. Orta və ali məktəb dərsliklərində onun yaradıcılığına yetərincə yer verilməməsi də bu sahədəki çatışmazlıqlardan biridir. Keçmiş Azərbaycan Sovet Ensiklopediyasında (ASE) Ömər Faiqə cəmi bir neçə sətir yer ayrılmışdı (9, s.418). Yetərincə tədqiq olunmamış sahələrdən biri də Ö. Faiqin ictimai-siyasi fəaliyyətidir, onun dövrün bir sıra keşməkeşli proseslərində şəxsi iştirakı ilə bağlı məsələlərdir.

Azərbaycan Respublikası Prezidentinin adı çəkilən sərəncamı görkəmli maarifçi ictimai xadim, milli mətbuatımızın böyük nümayəndəsi Ömər Faiq Nemanzadənin irsinin dərindən öyrənilib elmi ictimaiyyətə təqdim edilməsi üçün geniş imkanlar yaratmışdır. 2022-ci ilin ilin dekabrında Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda Ö.Faiqin anadan olmasının 150 illiyinə həsr edilmiş elmi konfrans keçirilməsi, eyni zamanda Akademik İsa Həbibbəylinin elmi redaktorluğu ilə tədqiqatçı Səadət Vahabovanın yazdığı "Ömər Faiq Nemanzadə: həyatı və yaradıcılığı" adlı monoqrafiyanın təqdim edilməsi bu sahədə atılan yeni addım kimi dəyərləndirilə bilər.

## Ədəbiyyat

1. "Ömər Faiq Nemanzadənin anadan olmasının 150 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı, "Azərbaycan qəzeti", 4 oktyabr 2022-ci il.

2. Vahabova Səadət. Ömər Faiq Nemanzadə - Həyat və yaradıcılığı, Bakı, 2022.

3..Həbibbəyli İsa. Cəlil Məmmədquluzadə - mühiti və müasirləri, Naxçıvan, "Əcəmi", 2009, "Elm və Təhsil", 2022.

4.Qurbanov Şamil. Ömər Faiq Nemanzadə, Bakı, 1992.

5.Məmmədquluzadə Cəlil. Əsərləri, VI cild, Bakı, 1985.

6.Ö.F.Nemanzadə. Seçilmiş əsərləri. Bakı, "Şərq-Qərb", 2006.

7.Anar. Literatura, İskustva, Kultura Azerbaydjana, III, Baku, 2013.

8.Ələkbərli Faiq. Azərbaycan türk fəlsəfəsi və ictimai fikir tarixi. XİX-XX əsrlər. Bakı, "Elm və Təhsil", 2020.

9.Azərbaycan Sovet Ensiklopediyası, VII cild, Bakı, 1983.

**Rəyçi:** **fəl. elm. dok. prof. İ.Məmmədzadə**

**Göndərilib: 27.10.2022** **Qəbul edilib: 14.11.2022**